## Elm xadimləri

Fəlsəfə elmləri doktoru, professor Nazim Hüseynlini 20 ildən artıqdır ki, tanıyıram. Bir yaxın adam vasitəsilə təsadüfən tanış olmuşduq. Sonralar bu tanışlıq möhkəm bir dostluğa çevrildi. Hər görüşümüzdə onun yeni bir xüsusiyyətini kəşf etdim: həsəd aparılacaq dərəcədə təmkinli, danışıq qabiliyyəti mükəmməl, bilik sahəsi çox geniş və əhatəli...



# Ədalət onun dəyişməz prinsipidir

Nə vaxt gəlsən, işləyirdi. Şumerlərlə bağlı tədqiqatlar aparırdı. Amma işə yanaşma prinsipində tez-tez işlətdiyi belə bir ifadə var idi: paralelliyi qorumaq. Əslində, bu onun iş kredosu idi: rəhbərlik etdiyi Bakı Avrasiya Universitetini yüksək səviyyədə idarə etmək və eyni zamanda elmlə məşğul olmaq, adət-ənənələrə hörmət. Bu, çox mühüm cəhətdir, Nazim xeyirdən də, şərdən də qalmayan bir insandır və hər işi məqamında çatdırmaq üçün vaxtını, necə deyərlər, "zərgər dəqiqiliyi" ilə ölçür. Yəqin ki, bu da onun güclü riyazi təfəkkürünün məntiqlə vəhdətindən irəli gəlir.

Birmənalı şəkildə demək olar ki, professor Nazim Hüseynli yaradıcı və qurucu insandır. Geniş dünyagörüşünün ona verdiyi inamla müstəqilliyimizin ilk illərində sovet təhsil sistemindəki boşluqların tezliklə aradan qaldırılması məqsədilə özəl təhsil müəssisəsini yaratdı. Buna isə artıq yüksək mühakimə və idrak qabiliyyətinə malik bir insanın fərdi baxımdan deyil, ictimai baxımdan yüksək qiymətləndiriləcək "tapıntı"sı demək olar. Bu tapıntı zamanın tələblərinə uyğun kadrlar hazırlayan Bakı Avrasiya Universiteti oldu.

Nazim novatordur.Tədrisin keyfiyyətli olması üçün həmişə axtarışda olur, çox maraqlı və yeni tədris üsulları tapırdı. Hələ ilk illərdən Ali Diplomatiya Kollecinə ölkəmizdə diplomatik xidmət göstərən səfirləri dəvət edir, görüşlər keçirir, təcrübə mübadiləsi aparır, mühazirələr təşkil edərək tələbələrlə canlı dialoq yaradırdı. Mən onda Xarici İşlər Nazirliyində idarə rəisi işləyirdim.O təklif etdi ki, tələbələr orada gəlib təcrübə keçsinlər. Biz razılığa gəldik və bu çox yaxşı nəticələr verdi. Məhz həmin tələbələr indi diplomatiya sahəsində uğurla çalışırlar.

Bir dost kimi onu da deməliyəm ki, Nazim çox səmimi və sədaqətli insandır. Dinləməyi yaxşı bacarır, hər hansı bir məsələ ilə bağlı müraciət edənə diqqətlə qulaq asır və köməyə ehtiyacı olana heç vaxt yox demir. Bildiyimə görə, maddi çətinlik çəkən və yaxşı oxuyan neçə-neçə tələbəni təhsil haqqından azad edib, onların təhsillərini başa vuraraq vətəninə, xalqına şərəflə xidmət etməsinə səbəbkar olub.

Nazim yaxşı gündə sevincini, pis gündə kədərini bölə biləcək, həmişə güvənli olacaq möhkəm bir dostdur, necə deyərlər, "köhnə kişi"lərdəndir. Həmişə düzgün yaşamaq üçün çalışır, ədalət hissini qoruyub saxlayır. Sözübütöv, möhkəm iradəli, etibarlı insandır. O, tələbələri üçün həqiqətə gedən yolda bələdçi, zirvələrə qalxan məqamda bir örnək, aqil olmaq üçün daim mütailə ediləcək bir mənbə, kamilliyə çatmaqda həyat təcrübəsi olub və hələ illər boyunca belə də davam edəcəkdir. Çünki o, zamana vaxtın fövqündən baxan bir müəllimdir, müəllimlərin yolları isə ömürlərindən çox, əbədiyyət qədər uzun olur.

Bir çox sahələrdə Azərbaycan elminə (şumerşünaslıq, idrak, məntiq, dilçilik) mühüm yeni töhfələr verən dostum, qardaşım! Xoşbəxt bir insansan, çünki bəxtinə çıxan ən vacib bir şey -"vaxt"ındır ki, sən onu zamanında yetərincə qiymətləndirib, millətə, dövlətə və dövlətçiliyimizə bir əsgər kimi xidmətdəsən. Mən diplomatam və bir diplomat kimi arzu edirəm ki, bundan sonra da rəhbərliyin altında Bakı Avrasiya Universitetinin hazırladığı kadrlar Azərbaycanın xarici siyasət kursunun həyata keçirilməsinə layiqli töhfələr versin. Buna universitetin potensialı imkan verir. Yüksək idarəçilik qabiliyyəti və peşəkarlığın nəticəsidir ki, təhsil ocağı hazırda 4 beynəlxalq təşkilatın üzvüdür və dünyanın 25-dən çox ölkəsinin ali təhsil müəssisələri ilə tələbə, müəllim və təcrübə sahəsində əməkdaşlıq edir. Bu müqavilələr çərçivəsində universitetin tələbələri beynəlxalq təhsil proqramlarında iştirak edir və xarici ölkə ali təhsil müəssisələrində təhsilini davam etdirmək imkanı qazanır.

Dünyaya gəlişimiz və gedişimiz fərdi-fiziki, fərdi-bioloji varlığımızın dəyişməsidir. Seçilmiş insanlar həyatı boyu əldə etdiyi bilik və malik olduğu intellektlə gələcəyi görür, əməllərilə saldığı iz fiziki yoxluğundan sonra da onları yaşada bilir. Mən bu gün sevinc hissi ilə deyə bilərəm ki, dostum Nazim Hüseynli belə bir ziyalı, alım və şəxsiyyətdir.

İstənilən ömür, istənilən tale bizə nə qədər yaxın olsa da, onun əlimiz çatmayan, gözümüzdən yayınan və qatlarına enə bilmədiyimiz, çoxsaylı vərəqləri var. O, hər bir insanın iç dünyasıdır ki, onu tam aşkarlamaq mümkün deyil. Bu iç dünyanda bütün arzuların gerçək olsun, yaratdığın məktəb davamlı, "60" ilin zirvəsi uğurlu və düşərli olsun!

***Aqşin MEHDİYEV,***
***İƏT-in Avropa İttifaqı yanında daimi müşahidəçisi, fövqəladə və səlahiyyətli səfir***